

*Musa Xanbabazadə*
*Filoloq-ədəbiyyatşünas*

# Sabir Rüstəmxanlı poeziyasında təbiət

**Sabir Rüstəmxanlı ismi çəkilər-çəkilməz təfəkkür və yaddaşlarda dərhal aşağıdakı sözlər sıralanır və həmin sözlər-anlayışlar S.Rüstəmxanlının adı ilə assosiasiya yaradır: VƏTƏN, XALQ, MİLLƏT, DİL, YADDAŞ, BÜTÖVLÜK, TÜRK, TÜRKÇÜLÜK, TURANÇILIQ... Həqiqətdir ki, yuxarıda fərqləndirilərək nəzərə çarpdırılan söz ifadələr Sabir Rüstəmxanlı yaradıcılığında bol-bol işlənir və əxlaqi-mənəvi, fəlsəfi-estetik, ədəbi-bədii anlamları poetikləşdirilir. Lakin bu heç də o demək deyil ki, S.Rüstəmxanlı poeziyası Azərbaycanın əngin-zəngin-rəngin təbiətinə laqeyd-biganədir.**

Ayıq oxucu Sabir poeziyasına (ümumən yaradıcılığına) bir tam, bir bütöv yanaşsa, hiss edər ki, Sabir vətəni, dili, türkçülüyü... mücərrəd şəkildə anlamır, vətən, türk, dil... anlayışlarına kompleks yanaşır, Vətəni yalnız coğrafi sərhəd anlayışı ilə hüdudlamır. Yəni şairin Vətən anlayışına təkcə dağlar-dərələr, çaylar-dənizlər, bulaq və şəlalələr, yollar-körpülər, qalalar və abidələr deyil, həm də ruh abidələri, ədəbiyyat və incəsənət, rəssamlıq və heykəltəraşlıq, nəğmə-mahnı, musiqi və rəqslər, xalq çalğı alətləri və habelə xalqın keçdiyi böyük tarixi yol, döyüş-savaşları, yaşam tərzi, adət-ənənələri və s. daxildir. Qısa desək, şairə görə, Vətən maddi-mənəvi sərvət və zənginliklərin toplusu, vəhdətidir, maddiyyatla mənəviyyatın qovuşan nöqtəsi, çarpazlaşmasıdır, xalqın əxlaq-düşüncə və yaradıcılıq tərzinin (qüdrətinin) maddi-mənəvi abidələrdə inikas məkanıdır. Bu məkanda təbiət-insan, təbiət-xalq anlaşması, münasibətləri bir-birilə ilişkilidir, biri digərinin tərəqqi-yüksəlişini stimullaşdırır, yönləndirir. Maddi Vətənlə mənəvi Vətən, təbiətlə xalq (insan) harmonik-ahəngdar biçimdə gah artan-yüksələn, gah enən-azalan xətlə inkişafda, bir-birinə təsiretmədədir.

Sabir Rüstəmxanlının təbiət şeirləri ("Yardımlı yollarında" (1964), "Yol dağlara aparır" (1968), "Dağdan danışa bilmirəm" (1989), "Bu qış da dağlara gedə bilmədim" (1979), "Dağlara qovuşuram" (1990), "Yardımlıya dönərkən" (1990)... oxucunu inandırır ki təbiət milli mənəviyyatın, daxili zənginləşmənin faktı, şərti, tərkib hissəsidir. Ekoloji tarazlığı pozulan təbiət elə insan ruhunun, mənəviyyatının və əxlaqının pozulmasıdır, zədələnməsi, erroziyaya uğramasıdır. Təbiətin məhvi insan cəmiyyətinin məhvidir. Təbiətin ahəngi-harmoniyası, insan ahəngi-harmoniyasıdır. Təzəlik-təravət axır təmiz təbiətdən, saf havadan insan ruhuna, insan ovqatına, sağaldır təbiət öz bakirəliyi, öz fitri-təbii ahəngi ilə insanın yoxsullaşan iç dünyasını, çirkab-çamurlardan paslanan könül aynasını. Əsirgəmir insandan ətirli-rayihəli, məstedici-təravətverici min naxışını, min bir boyasını:

*...Sonsuz səmaların maviliyindən*
*Qəlbimə bir işıq axıb tökülə.*
*...Dərə sükutundan, qartal səsindən,*
*Özümlə bir parça apara biləm.*
*...Sübhün süd dumanı təmizlik verə,*
*Qatam ürəyimə, şeirlərimə.*
*...Maral yoncasından, səhər şehindən,*
*Könül yanğısına məlhəm aparam.*

İnsan saflığı-paklığı təbiətdən alır. İstedadın-talantın beşiyi, ilki, qaynağıdır təbiət. Təbiətin saf havasına, bulaq suyunun duruluğunu, torpağın səxavətinə, dağların əzəmətinə, bağrıqan lalələrin od tutuban yanmağına bütün yaşlarda heyran kəsilir insan. Dərdlərinin, ağrı-acılarının çarəməlhəmini təbiətin loğman qucağında tapır insan. Təbiətə xilaskarı-pənahdarı kimi baxır insan:

*...Burda insan çinar kimi qol-budaqlı,*
*Burda insan dağlar kimi əzəmətli.*
*Ürəkləri günəş kimi saf eləyir*
*yerin ətri, göyün ətri!*
*Burda geniş çəmənlərin*
*çiçək-çiçək gülüşü var.*
*Burda uca zirvələrin*
*bəyaz qardan gümüşü var.*
*Bir udumluq hava dərman*
*hər qəminə, ələminə.*

Bəşər dünyanın şah mərtəbəsi sayır insanı. Uzun-uzun əsrlər yamsılayıb təbiəti insan. Ev qurmağı, bina ucaltmağı quşdan, böcəkdən öyrənib insan. Arzu-istəklərini dağa-daşa pıçıldayıb. Ehtiyac-möhtaclıqlarına təbiət hesabına son qoyub. Təbiətin gücünə varlanıb-barlanıb. Güclənib-qüvvətlənib - artıb insan. Basılıb nəfsinə-tamahına. Təbiətə zülm etməyə, qan uddurmağa girişib təbiətə minnətdarlıq əvəzinə, nankorluq edib, arxa çevirib. Baltalayıb təbiətin uca-uca ağaclarını. Talanlayıb-qarətləyib laləli-nərgizli yamaclarını. Qənim kəsilib ayaqları xınalı turaclarına. Tüfəng atıb, güllə yağdırıb Azərbaycan təbiətinin emblemi qaragöz ceyranlara. Ucu sivri lələkli oxlar vıyıldadıb yaşılbaş sonalara. Qara-qara daşlar basıb buz bulaqların gözlərinə. Ağlar qoyub ata-baba oylaqlarını. Vəzifəyə, kresloya satıb sərin-sərin yaylaqlarını. Zəhərləyib min nemət yetirən bağ-bağat, əkin-biçin yerlərini insan. Təbiətin ilkinliyinə qəsdlər, təbiətin təbii nizamına həmlələr sonucda zərbə altında qoydu insanı. Bu zərbə başqa yerdən, başqa kəslərdən gəlmədi. Bu zərbə, bu intiqam elə təbiətin özündən, təbiətin qisasintiqamından gəldi. Bu məqamda böyük Engelsdən bir müdrik kəlam yerinə düşür: "Təbiət üzərindəki qələbəmizlə çox da öyünməyək. Hər bir qələbə üçün təbiət bizdən intiqam alır".

Sabir Rüstəmxanlı təbiət şerlərində belə bir fikri qabardır ki, təbiətdən saflıq və ilkinliyi yalnız və yalnız milli yaddaşsızlar, əsilsiz əxlaqsızlar, yırtıcı vətənsizlər çapıb-talaya bilər. Bu təbiət qəssabları daha bilmirlər ki, onlar hərəkətləri ilə həm özlərinin, həm də təbiətin intiharını sürətləndirir, baltanı həm öz başlarına, həm də balalarının başlarına endirirlər:



***Harda qaldı buz bulaqlar,***
***Çağlayıb daşa bilmirəm.***
***Yurd yerləri mənsiz ağlar,***
***Səsimi qoşa bilmirəm.***
***...Bostanları uralanıb,***
***Köçü-karvanı talanıb.***
***Bu el dağdan aralanıb***
***Dağdan danışa bilmirəm.***

Nisgil, həsrət, həzinlik, qəm-qüssə tökülür bu misralardan. Xiffətini çəkirik buz bulaqların. Arxasınca boylanırıq uralanan bostanların. Ağlayırıq gizli-gizli bizsiz darıxan, bizlərə dərd-sər gətirən yurd yerlərinə. Günahkar bizikmi, təbiətmi, ya da zalım-qəddar zəmanə?!

Bəlkə, biz buz bulaqların, yurd yerlərinin ayıq-sayıq keşikçisi olmamışıq?! Deyirəm, bəlkə, o bulaqlara gərəyincə qayğılı-sayğılı olsa idik, başlarına min oyun açmasa idik, gözlərini daşlayıb kor etməsə idik, nə bostanlarımız uralanardı, nə yurd yerlərimiz ağlar qalardı, nə də köçümüz-karvanımız talanmazdı, peşmançılıq odunda da yanmazdıq. Təbiət də canlıdır, diridir. Deyirəm, bəlkə, təbiətə sonsuza qədər zülmlər çəkdirmişik, təbiəti boğaza yığmışıq və nəhayət, səbir kasasını daşdırmışıq, dözüm limitini tükətmişik. Stressdən, həyəcan-təşvişdən, sarsıntı və yüksək təzyiqdən sarsılıb və bizlərə ağlasığmaz fəlakətlər yaşadır təbiət?!

"Dağdan danışa bilmirəm" şeiri həm də ictimai məzmunludur. Burada şair torpaqlarımızın işğalına, namərd qonşularımızın dönüklük və etibarsızlığına da eyham və işarələr vurur. Bununla şair demək istəyir ki, ermənilər nəinki biz türklərin əbədi düşmənləridir, onlar hətta milli təbiətimizin də qəsdçiləri, işğalçılarıdır. Məhz bu qəsd və işğallar bizi yurd yerlərimizdən, dədə-baba torpaqlarımızdan didərgin salıb, bostanlarımızı, qızıl mədənlərimizi, durnagöz bulaqlarımızın can dərmanı şəfa sularını karvan-karvan xarabalarına daşıyırlar. Şair var-gur səsilə bəyan edir ki, yadellidən mərhəmət görməyən təbiət də qucağından qaçqınköçkün düşən xalq kimi ağlar-giryandır.

Dağ (dağlar) poeziyamızda ən çox tərənnüm olunan obrazlardandır. Və dağa müraciət bir sıra səbəblərlə bağlıdır: a) dağın əyilməzlik-bölünməzlik simvolu olması; b) çətinlikdə-bərk ayaqda insanın dağı özünə pasiban-xilaskar bilməsi; c) igid və qəhrəmanlarımızın dağa bənzədilməsi; ç) dağ havasının, dağ sularının, dağ çiçəklərinin həyat çeşməsi olması, müalicəvi əhəmiyyət daşıması. (Xalq şairi Hüseyn Arif ustad Səməd Vurğuna həsr etdiyi əsərdəki beyt məgər dağ qarının müalicəvi keyfiyyətindən xəbər vermirmi: "Çiynində Qoşqarı aparar ellər, Ona dərman üçün qar gərək olsa". Və yaxud Aşıq Ələsgərin "Dağlar" qoşmasındakı "Xəstə üçün təpəsində qar olar" misrası dağ qarının tibdəki rolunu qabartmırmı?!).

Sabir Rüstəmxanlının da bir sıra şeirlərində dağ obrazına müraciət öz parlaq ifadəsini tapıb. Bu müraciət-tərənnümlərin bir çoxu köhnə formada (gəraylıda) yazılsa da, məzmun və ideyaca təzədir, yenidir və demək olar ki, əvvəlki illərin gəraylı və qoşmalarında işlənən şablonlaşmış söz, ifadə və deyimlərə bu şeirlərdə rast gəlinmir.

Bu şeirlərdə şair dağı (dağları) orijinal təşbeh və metaforalarla, epitet və mübaliğələrlə elə bəzəyir-süsləyir ki, oxucu bu ifadələrin, bu deyimlərin təzəliyinə, müasirliyinə heyrətlənməyə bilmir.

Baxırsan şeirdə poetizm məqamında işlənən əksər sözlərin yaşı əsrlərə, qərinələrə gedib çıxır. Amma mətn daxilində elə metaforik güc-sehrovsun kəsb edir ki, oxucu heyrətindən donub qalır və bu ifadələri yeniləşdirdiyinə, orijinallaşdırdığına görə bədii kəşf, bədii tapıntı, bədii uğur səviyyəsində qəbul edir, şairin özünəxaslığına, özünəbənzərliyinə dodaqlarından "Əhsən!", "Afərin!" nidaları qanadlanır.

*Yollar cilovudur köhlən dağların,*
*Cilov dartılıbdır şahə qalxıb dağ.*
*Göy şimşək qılıncla döyər dağları,*
*Dağ kişnər, yerindən tərpənməz ancaq.*

Göründüyü kimi, nümunədəki sözlərin çoxu informatik funksiya yox, poetik funksiya daşıyır, yəni hər söz həqiqi mənasını qismən saxlasa da, əsasən, məcazlaşıb, poetikləşib, diriləşib, canlaşıb, necə deyərlər, oxucu ürəyinin küncbucaqlarını belə işıqlandırır. Bu, şairin oxucu üzərində qələbəsi, hökmranlığıdır.

Sabir Rüstəmxanlının təbiət şeirlərinə və bu şeirlərdə poetikləşdirilən fikir və düşüncələrə söykənərək biz poeziya və təbiət arasındakı bir sıra oxşarlıq və uyarlıqların şahidi oluruq. Belə ki, həm poeziya, həm də təbiət katarsis (təmizlənmə) gücündədir, yəni hər ikisi insana həya-abır, tövbəxəcalət ələyi-süzgəcidir. Saflaşdırır, duruldur, insanın içini. Təmizləyir ruhu xəbislik-naqisliklərdən, bədxahlıq-fənalıqlardan, paxıllıq-dağallıqlardan. Təmənnasızdır xidmət və səxavətdən həm poeziya, həm də təbiət. Ətrafa, cəmiyyətə, ürək və beyinlərə saf-təmiz hava dağıdır, ilkinlik və təbiiliyə, pakizəlik və bakirəliyə qəsd və həmlələrə dözümsüzdür həm təbiət, həm də poeziya. Əsiri deyil nəfsin-tamahın, ilkinliyinə-kökünə haram maya, haram toxum qatmır nə təbiət, nə də poeziya. Ekoloji və mənəvi fəlakəti çağdaş təfəkkürə və insanın mənəvi dünyasına tuşlanmış cinayət aktı və terror sayır həm təbiət, həm də poeziya. İnsanın fiziki-mənəvi sağlamlığının keşikçisidir həm təbiət, həm də poeziya. Təbiət harmoniyadan ibarət olduğu kimi, poeziya da harmoniyadır.

**Sabir Rüstəmxanlı poeziyası ana dilimizin, qan yaddaşımızın, məslək-amalımızın, bütövlük və müstəqilliyimizin... keşiyində hansı cəsarətlə dayanırsa, Azərbaycan təbiətinin, flora və faunasının da keşiyində eyni pafos və coşğu ilə dayanır. Sabir Rüstəmxanlı vətəndaş kimi dərindən-dərin dərk edir ki, təbiətin təmizlik və saflığına, harmoniya və ahəngdarlığına mənəvi cavabdehliyi ilkin olaraq şairlər (yazarlar) daşıyır. Axı, şairlər həm cəmiyyətin, həm də təbiətin harayını var-gur səslərilə dünyaya car çəkən vəkillərdir. Sabir Rüstəmxanlı da bu cür vəkillərdən biridir, həm də ulu Yaradan tərəfindən Azərbaycan məmləkətinə göndərilən səlahiyyətli vəkil!**